Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin “____” __________ 2023-cü il tarixli _____ nömrəli əmri ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Biznesə xidmətlər departamentinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (bundan sonra – Agentlik) Biznesə xidmətlər departamenti (bundan sonra – Departament) İqtisadiyyat nazirinin 4 mart 2021-ci il tarixli, F-29 nömrəli əmri ilə təsdiq edilmiş Agentliyin Aparatının strukturuna daxil olan müstəqil bölmədir.

1.2. Bu Əsasnamə Departamentin funksiyalarını, hüquq və vəzifələrini, fəaliyyətinin təşkili qaydasını müəyyən edir.

1.3. Departament öz fəaliyyətini müvafiq qanunvericilik aktlarına, Agentliyin Nizamnaməsinə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin qərarlarına, Agentliyin idarəetmə orqanlarının qərarlarına və bu Əsasnaməyə uyğun qurur.

1.4. Departament öz funksiyalarını həyata keçirərkən Agentliyin Aparatının struktur bölmələri və vahidləri və digər bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Departamentin funksiyaları

2.0. Departamentin funksiyaları aşağıdakılardır:

2.0.1. mikro, kiçik və orta sahibkarlıq subyektləri (bundan sonra - KOB subyektləri) üçün effektiv məsləhət və informasiya dəstəyi sisteminin formalaşdırılmasına, onların bilik və bacarıqlara çıxışının təmin edilməsinə dəstək göstərir;

2.0.2. mikro, kiçik və orta sahibkarlığın inkişafı istiqamətində müxtəlif təlimləri, seminarları, praktiki təcrübə proqramlarını təşkil edir, təşviqatın aparılmasını, habelə biznes təşəbbüsləri olan, yeni fəaliyyətə başlamaq istəyən və yeni fəaliyyətə başlayan KOB subyektlərini dəstəkləyir;

2.0.3. startapların, ailə biznesinin, qadınlar, əlillər və gənclər arasında innovativ sahibkarlığın təşviqini təmin edir;

2.0.4. KOB subyektləri üçün yeni satış kanallarının yaradılmasına və satış həcminin artırılmasına dair təkliflər verir, bazarlara çıxış sahəsində KOB subyektlərini dəstəkləyir;

2.0.5. KOB subyektlərinin və onların istehsal etdikləri məhsulların (göstərdikləri xidmətlərin) ölkədə və xaricdə təşkil edilən sərgilərdə iştirakının təmin edilməsi ilə bağlı dəstək göstərir;

2.0.6. KOB subyektlərinin “G2B” (dövlət – biznes) , “B2B” (biznes – biznes) xidmətlərinin təşkili istiqamətində tədbirlərin həyata keçirilməsi, habelə Agentliyə həvalə edilmiş “G2B”, “B2B” xidmətlərinin təşkili mərkəzlərində KOB subyektlərinə göstərilən xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilməsinə nəzarəti və səmərəliliyi təmin edir;

2.0.7. kiçik və orta biznes evlərinin (bundan sonra - KOB evləri) yaradılması məqsədilə dövlət və özəl qurumların xidmətlərinin təşkili və bununla bağlı tədbirlərin həyata keçirilməsi ilə əlaqədar müvafiq işlər görür;

2.0.8. KOB subyektlərinin yerli və xarici maliyyə resurslarına çıxışının dəstəklənməsi, o cümlədən investorların cəlb edilməsi və maliyyə institutları ilə birgə əməkdaşlığın qurulması istiqamətində müvafiq işi təşkil edir;

2.0.9. KOB subyektlərinin inkişafı və onların maliyyəyə çıxışının asanlaşdırılması məqsədilə fondların yaradılması istiqamətində tədbirlərin görülməsini və bu prosesə

maliyyə institutlarının cəlb edilməsini, o cümlədən, zəmanət və ixrac-idxal fondlarının yaradılmasını təşviq edir;

2.0.10. alternativ maliyyə alətləri sahəsində beynəlxalq təcrübələri öyrənir, ölkədə tətbiqinə dair müvafiq təkliflər verir;

2.0.11. mikro, kiçik və orta sahibkarlığın tənzimlənməsi sahəsində normativ hüquqi bazanın formalaşdırılmasında iştirak edir;

2.0.12. KOB subyektlərinə dövlət dəstəyinin göstərilməsi və bu istiqamətdə mexanizmlərin təkmilləşdirilməsi və yenilərinin yaradılması ilə bağlı təkliflər verir;

2.0.13. vahid “G2B” (dövlət-biznes) elektron reyestrinin təkmilləşdirilməsi ilə bağlı müvafiq təkliflər verir;

2.0.14. dövlət qurumlarının KOB subyektlərinə göstərdikləri xidmətlərin müvafiq sahəni tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilməsinə, keyfiyyətinə və şəffaflığına dair qiymətləndirmələrin aparılması və beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi ilə bağlı təkliflər verir;

2.0.15. müxtəlif istiqamətlərdə sahəvi biznes assosiasiyalarının yaradılmasına dəstək göstərir;

2.0.16. sahibkarlar arasında klasterləşmə yanaşmasının formalaşdırılmasını təşviq edir, onlar arasında marağın artırılmasını və klasterlərdə birləşməni dəstəkləyir;

2.0.17. KOB subyektlərinə dəstək mexanizmləri çərçivəsində xidmətləri təşkil edir və göstərilməsini təmin edir;

2.0.18. qanunvericiliklə müəyyən edilmiş digər funksiyaları həyata keçirir.

## 3. Departamentin vəzifələri

3.0. Bu Əsasnamə ilə müəyyən edilmiş funksiyalarına uyğun olaraq, Departamentin vəzifələri aşağıdakılardır:

3.0.1. KOB subyektlərinin maarifləndirilməsi, bilik və bacarıqlarının artırılması məqsədilə təlim, məsləhət, müvafiq təşviqedici proqramlar, kampaniyalar və beynəlxalq mübadilə proqramlarında iştirak və digər dəstək xidmətləri göstərmək, onların işgüzar keyfiyyətini və biliklərini qiymətləndirmək;

3.0.2. KOB İnkişaf Mərkəzlərinin fəaliyyətini təşkil etmək, uğurlu beynəlxalq təcrübələr nəzərə alınmaqla potensialının gücləndirilməsi ilə bağlı müvafiq tədbirlər görmək;

3.0.3. sahibkar düşüncə tərzinin formalaşdırılması, təhsil və ictimai tərbiyə (sosial pedaqogika) müəssisələri ilə əməkdaşlıq qurmaq, o cümlədən kurikulumların, tədris proqramlarının, dərsliklərin, media və digər kommunikasiya siyasətinin hazırlanması və resursların tərtibi proseslərində iştirak etmək;

3.0.4. özəl sektorun və ictimai təşkilatların nümayəndələri ilə birlikdə KOB subyektləri və sahibkarlıq fəaliyyətinə başlamaq istəyən şəxslər, xüsusən də gənclər arasında sahibkarlıq fəaliyyətini təşviq etmək;

3.0.5. innovativ sahibkarlığı təşviq etmək, o cümlədən startapların, texnoloji biznes inkubatorların və texnoloji transfer mərkəzlərinin yaradılması ilə bağlı təkliflər vermək;

3.0.6. müvafiq müqavilələr əsasında KOB subyektlərinin maarifləndirmə, bilik və bacarıqlarının inkişafı sahəsində ehtiyaclarına uyğun olaraq qanunvericiliklə qadağan olunmayan xidmətlərin göstərilməsini təmin etmək;

3.0.7. KOB subyektləri üçün ixtisaslı mütəxəssislərə dair məlumat bazasının yaradılması, habelə sağlam milli təhsil profilinin təşviqi məqsədilə KOB subyektləri üçün bacarıqlı mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı aidiyyəti dövlət qurumlarına, tədris müəssisələrinə və Agentliyin aidiyyəti bölmələrinə təkliflər vermək və həmin təkliflərin həyata keçirilməsində iştirak etmək;

3.0.8. təhsil, elm, istehsalat sahələrinin qarşılıqlı fəaliyyətinin effektivliyinin artırılması, universitetlərin, eləcə də dövlət və özəl araşdırma təşkilatlarının innovasiya infrastrukturundan sahibkarların faydalanması, sənaye və universitet əməkdaşlığının gücləndirilməsi, KOB subyektlərinə dəstək məqsədilə gənc mütəxəssislərin və tələbələrin sahibkarlığa könüllü olaraq cəlb edilməsinin təşviqi istiqamətində görülən tədbirlərdə iştirak etmək;

3.0.9. məhsulların istehsalı, qablaşdırılması, satışı və ixracı üzrə beynəlxalq standartların öyrənilməsi və tətbiqi ilə bağlı KOB subyektlərinə dəstək vermək, daxili və xarici bazarlarda satışını təşviq etmək;

3.0.10. KOB subyektlərinin istehsal etdikləri malların, gördükləri işlərin və göstərdikləri xidmətlərin realizəsi məqsədilə potensial sifarişçilərin tapılmasında müvafiq köməklik göstərmək, dövlət satınalmalarında KOB subyektlərinin iştirakının artırılması ilə bağlı tədbirlər həyata keçirmək, o cümlədən bu sahədə aidiyyəti dövlət orqanlarının, özəl sektorun və ictimai birliklərin nümayəndələri ilə birlikdə müvafiq tədbirlər həyata keçirmək;

3.0.11. KOB subyektlərini təmsil edən qurumlar və biznes assosiasiyaları, dövlət orqanları, kommersiya və qeyri-hökumət təşkilatları, sahibkarların ittifaqları, elm-təhsil müəssisələri ilə sıx əməkdaşlıq etmək;

3.0.12. biznes sahələri üzrə ixtisaslaşmış biznes assosiasiyalarının və ictimai birliklərin yaradılmasını təşviq etmək, məlumat bazasını formalaşdırmaq, onların fəaliyyətini əlaqələndirmək və illik hesabatları ilə tanış olmaq, assosiasiya, ictimai birlik və fondların yerli və beynəlxalq inteqrasiyasını dəstəkləmək və onlara çıxışı təmin etmək, habelə innovasiya sahəsində ixtisaslaşan sahibkarların assosiasiyasının inkişafı ilə bağlı təkliflər vermək;

3.0.13. sahibkarların fəaliyyətinin təşviqi məqsədilə beynəlxalq təcrübədə uğurla tətbiq edilən, dövlət–sahibkar tərəfdaşlığına əsaslanan sənaye və xidmət klasterlərinin, xüsusi rejimli zonaların, texnoparkların, aqroparkların, bazarların, terminalların, anbarların, mərkəzlərin, xüsusi məqsədli vasitələrin (“Special Purpose Vehicle”) və model müəssisələrin yaradılması ilə bağlı təkliflər vermək və onların fəaliyyətində Agentliyin iştirakını təmin etmək;

3.0.14. KOB subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması üçün onlara daxili bazarın mövcud vəziyyətinin öyrənilməsi, xərclərinin azaldılması, səmərəliliyin artırılması, habelə satışa dəstək mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

3.0.15. sahibkarların xarici və yerli sərgilərdə iştirakını təşviq etmək, onların istehsal etdikləri məhsulların (göstərdikləri xidmətlərin) bu sərgilərdə iştirakının təmin edilməsi ilə bağlı müvafiq tədbirlər görmək;

3.0.16. dövlət qurumlarının göstərdikləri (göstərəcəkləri) xidmətlərin (G2B) və özəl qurumların xidmətlərinin (B2B) “G2B” və “B2B” xidmət mərkəzlərində (o cümlədən KOB evlərində) göstərilməsini təşkil etmək;

3.0.17. KOB evlərində “G2B” və “B2B” xidmətlərinin təşkil edilməsi məqsədilə aidiyyəti təşkilatlarla danışıqlar aparmaq, müvafiq tədbirlər görmək;

3.0.18. “G2B” və “B2B” xidmət mərkəzlərində (o cümlədən KOB evlərində) göstərilən xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və istifadə rahatlığı prinsipləri əsasında həyata keçirilməsinə nəzarəti təmin etmək və göstərilən xidmətlərin keyfiyyətinə və şəffaflığına dair qiymətləndirmələrin və onların təhlillərinin aparılmasını təmin etmək;

3.0.19. “G2B” və “B2B” xidmət mərkəzlərində (o cümlədən KOB evlərində) xidmət edəcək Agentliyin müvafiq struktur bölmələrinin və digər qurumların əməkdaşlarının, eləcə də könüllülərin, əmək, icra və xidmət intizamına, etik davranış qaydalarına riayət etmələrinə müvafiq struktur bölmə ilə birgə nəzarətin təşkilini təmin etmək, onlara təlim, məsləhət, informasiya və digər dəstək xidmətlərini göstərmək, zəruri maddi-texniki bazanın yaradılması və yaxşılaşdırılması ilə bağlı təkliflər vermək;

3.0.20. KOB subyektlərinin yerləşmə xüsusiyyətləri, sayı nəzərə alınmaqla, “G2B” və “B2B” xidmət mərkəzlərinin (o cümlədən KOB evlərinin) yaradılması istiqamətində, habelə ərazi baxımından ayrı-ayrı obyektlərdə fəaliyyətinin təşkili və dayandırılması ilə bağlı araşdırmalar aparmaq, eləcə də bunun zəruriliyini əsaslandırmaqla təkliflər vermək;

3.0.21. startapların və KOB subyektlərinin alternativ maliyyə resurslarına (kreditlərə, investisiyalara, qrantlara, biznesə dəstək (venture) kapitalına və s.) çıxış imkanlarının genişləndirilməsi istiqamətində tədbirlər həyata keçirmək;

3.0.22. KOB sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi məqsədi ilə investisiya mühitinin təhlil edilməsi və təkmilləşdirilməsinə dair təkliflər vermək;

3.0.23. potensial investorların KOB subyektlərinə investisiya yatırmasını təşviq etmək üçün onlar arasında müxtəlif investisiya təşviqi tədbirləri görmək, eləcə də investisiya yatırmaqda maraqlı olan xarici investorlarla investisiya axtarışında olan KOB subyektləri, habelə təchizatçı və birgə müəssisələr arasında vasitəçilik etmək, onların görüşünü təşkil etmək və lazımi dəstəyi təmin etmək;

3.0.24. KOB subyektlərinin həyata keçirəcəkləri innovativ və bilik əsaslı layihələri müsabiqə yolu ilə seçmək, onlara texniki, təşkilati və maliyyə dəstəyinin göstərilməsi məqsədilə beynəlxalq təşkilatlardan və fondlardan maliyyə vəsaitinin cəlb olunması işini təşkil etmək;

3.0.25. KOB subyektləri üçün güzəştli maliyyə resurslarından istifadə imkanlarını genişləndirən təşəbbüslər həyata keçirmək, bu istiqamətdə müvafiq dövlət və özəl maliyyə institutları ilə əməkdaşlıq etmək, habelə vəsaitlərdən səmərəli və təyinatı üzrə istifadə olunmasını koordinasiya etmək və onlara digər yardım göstərmək;

3.0.26. KOB subyektlərinə xidmət edəcək və onların maliyyə çıxışını asanlaşdıracaq fondların yaradılması, təşkili və idarə edilməsi, göstərilən xidmətlərin şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında qanuna uyğun, keyfiyyətli və şəffaf həyata keçirilməsinə nəzarət etmək və bu sahədə qiymətləndirmələrin aparılmasını təmin etmək;

3.0.27. fondlara KOB sahəsində ixracyönümlü layihələri araşdırmağa, onların iqtisadi səmərəliliyini qiymətləndirməyə, innovasiyayönümlü layihələri inkişaf etdirməyə, maliyyə dəstəyi göstərməyə və xarici investisiyaları cəlb etməyə dəstək vermək;

3.0.28. mikro, kiçik və orta sahibkarlığın tənzimlənməsi sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, habelə sahibkarlıq sahəsində dəstək infrastrukturlarını formalaşdıran və dəstək mexanizmlərini icra edən təşkilatların xidmətlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

3.0.29. mikro, kiçik və orta sahibkarlığın tənzimlənməsi sahəsində normativ hüquqi bazanı təhlil etmək, sahibkarların fəaliyyətinə təsir edən qanunvericilik aktlarının, o cümlədən onların layihələrinin beynəlxalq təcrübədə geniş tətbiq olunan təsir təhlillərini aparmaq, iqtisadi və digər aspektlərinin ekspertizasını həyata keçirmək və bununla bağlı təkliflər vermək;

3.0.30. sahibkarlıq fəaliyyəti ilə bağlı Agentliyin iştirakı ilə hazırlanan qanunvericilik aktlarının müzakirəsini sahibkarları dəvət etməklə təşkil etmək, həyata keçirilən iqtisadi islahatlar prosesində onlarla dövlət qurumları arasında qarşılıqlı etimadın artırılması ilə bağlı tədbirlər görmək, aidiyyəti qanunvericilik aktları və həmin aktlarda dəyişikliklər və yeniliklər barədə məlumatlar hazırlamaq və sahibkarları məlumatlandırmaq üçün aidiyyəti üzrə tədbirlər görmək;

3.0.31 sosial sahibkarlığın (özünüməşğulluğun), əlilliyi olan şəxslər, qadınlar və gənclər arasında sahibkarlığın inkişafını təşviq etmək məqsədilə əlverişli biznes mühitinin yaradılması sahəsində təkliflər vermək;

3.0.32. mikro, kiçik və orta sahibkarlıq sahəsində beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək, beynəlxalq hesabatların təhlil edilməsi istiqamətində müvafiq işlər görmək və bu təhlillər əsasında təkliflər vermək;

3.0.33. qlobal iqtisadi çağırışlara uyğun olaraq, ölkədə sahibkarlığın inkişaf tendensiyalarını təhlil etmək, iqtisadi və sosial ehtiyacların qarşılanmasında KOB subyektlərinin rolunun və payının artırılması, habelə KOB subyektlərinin problemləri, sahibkarlığın inkişaf meyilləri, biznes və investisiya mühitinin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

3.0.34. vahid “G2B” (dövlət-biznes) elektron reyestrinə daxil edilən hər bir xidmətin “KOB indeksi” üzrə qiymətləndirilməsinin aparılmasını təşkil etmək, habelə sözügedən reyestrin aparılması və təkmilləşdirilməsi ilə bağlı müvafiq təkliflər vermək;

3.0.35. ölkədə yeni yaranan sahibkarlıq subyektlərinin, o cümlədən startapların inkişafı istiqamətində dəstəyin göstərilməsi, onların fəaliyyətinin təşviq edilməsi ilə əlaqədar təkliflər vermək;

3.0.36. KOB subyektlərinə dövlət dəstəyinin əsas istiqamətlərinin, ümumi şərtlərinin, forma və mexanizmlərinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək, o cümlədən normativ hüquqi aktlarda nəzərdə tutulan hallarda və qaydada hüquqmüəyyənedici sənədlərin verilməsi ilə bağlı tədbirlər görmək;

3.0.37. KOB subyektlərinə “Startap” şəhadətnaməsinin verilməsi mexanizminin təşkili və icrasını təmin etmək;

3.0.38. ölkə iqtisadiyyatında istehsal və xidmət sahələri üzrə daxili bazarı araşdırmaq, KOB subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması üçün onlara daxili bazarın mövcud vəziyyətinin öyrənilməsində dövlət dəstəyinin göstərilməsinin təşkili və icrasını təmin etmək;

3.0.39. donor təşkilatların və qeyri-hökumət təşkilatlarının startapları və sahibkarları dəstəkləyən layihələrini əlaqələndirmək və birgə təşəbbüslər həyata keçirmək;

3.0.40. KOB subyektləri ilə ölkədə fəaliyyət göstərən iri sahibkarlar arasında əməkdaşlığı təşkil etmək, onların klasterlərdə birləşməsini dəstəkləmək;

3.0.41. KOB subyektləri arasında klasterləşməni və onların buna marağının artırılmasını, bu sahədə hüquqmüəyyənedici sənədlərin verilməsi işini təşkil etmək;

3.0.42. potensial investorların KOB subyektlərinə investisiya yatırmasını təşviq etmək üçün aidiyyəti dövlət dəstək mexanizmlərindən istifadə etməklə investisiya təşviqi istiqamətində tədbirlər görmək;

3.0.43. KOB subyektlərinin təqdim etdikləri layihələrin "Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası"na uyğun olaraq maliyyələşdirilməsi istiqamətində müsabiqələri təşkil etmək;

3.0.44. KOB subyektlərinə göstərilən dövlət dəstək mexanizmlərinin təşkili və icrası istiqamətində tədbirləri həyata keçirmək;

3.0.45. funksiyaları üzrə KOB subyektlərindən, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.0.46. funksiyaları üzrə Müşahidə Şurasının, İdarə Heyətinin iclaslarının gündəliyinə daxil edilmiş məsələlərlə bağlı tələb olunan məlumat və sənədləri hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

3.0.47. sahibkarlıq sahəsində inkişafa nail olunması məqsədilə hədəf istiqamətlərin müəyyən edilməsi, bu sahədə strateji planların, yol xəritələrinin, tədbirlər planlarının hazırlanması ilə bağlı təkliflər vermək;

3.0.48. Agentliyə həvalə edilmiş hüquq və vəzifələrin icrası ilə bağlı hesabatların və illik iş planının hazırlanmasında iştirak etmək;

3.0.49. Departamentin fəaliyyəti ilə bağlı zəruri dövri hesabatların və məlumatların hazırlanmasını, emalını, təhlil və icmallaşdırılmasını həyata keçirmək, İdarə Heyətinin sədrinə (bundan sonra – Sədr) çatdırılmasını təmin etmək;

3.0.50. öz funksiyalarına uyğun olaraq tapşırılmış digər vəzifələri yerinə yetirmək.

## 4. Departamentin hüquqları

4.0. Bu Əsasnamə ilə müəyyən edilmiş funksiyalarına uyğun olaraq, Departamentin aşağıdakı hüquqları vardır:

4.0.1. funksiyalarına uyğun olaraq aidiyyəti tədbirlər görmək və rəhbərliyə təkliflər vermək;

4.0.2. müvafiq sahədə stimullaşdırıcı tədbirlərin və müsabiqələrin təşkil edilməsi, qaliblərin mükafatlandırılması məqsədilə təkliflər vermək;

4.0.3. KOB subyektlərini təmsil edən qurumlar və biznes assosiasiyaları ilə sıx əməkdaşlıq etmək, onların hüquqlarının qorunması və inkişafı istiqamətində birgə tədbirlərin həyata keçirilməsində iştirak etmək;

4.0.4. funksiyaları üzrə qəbul edilmiş normativ hüquqi aktların, o cümlədən dövlət proqramlarının və konsepsiyaların icrasına dair məlumatlar əldə etmək, onları təhlil etmək, icmallaşdırmaq və rəhbərliyə təqdim etmək, habelə bu növ sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;

4.0.5. sahibkarlığın inkişafı üçün tələb olunan araşdırma, statistika və təhlillərin elm və təhsil müəssisələri və digər biznes təsisatları ilə əməkdaşlıq əsasında həyata keçirilməsində iştirak etmək;

4.0.6. sahibkarlara dəstək tədbirlərinin maliyyələşdirilməsinin səmərəliliyini qiymətləndirmək və nəticələri barədə hesabatları təqdim etmək;

4.0.7. Agentlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Agentliyi təmsil etmək və onların fəaliyyətində iştirak etmək;

4.0.8. funksiyalarına uyğun olaraq ölkədə və xaricdə keçirilən iclaslar, biznes forumlar, konfranslar, müşavirələr, sərgilər, seminarlar və bu qəbildən olan digər tədbirləri təşkil etmək;

4.0.9. funksiyalarına aid edilmiş məsələlərlə bağlı Agentliyi dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və mənafelərini müdafiə etmək;

4.0.10. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Agentliyin Aparatının struktur bölmələrinə və digər bölmələrinə, dövlət orqanlarına hüquqi və fiziki şəxslərə müvafiq qaydada sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.0.11. qanunvericiliyə uyğun olaraq, Departamentin əməkdaşları üçün təcrübəkeçmə, ixtisasartırma və yenidən hazırlıq xidmətlərinin göstərilməsi barədə aidiyyəti strukturlarla birgə tədbirlər görmək;

4.0.12. funksiyalarına uyğun olaraq xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək, habelə müvafiq sahə üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək, Azərbaycan Respublikasının bu sahədə iştirakı ilə bağlı materiallar toplamaq, onları ümumiləşdirmək və təhlil etmək;

4.0.13. Agentliyin rəhbərliyinin razılığı əsasında ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

4.0.14. funksiyalarına uyğun olaraq Agentlik tərəfindən müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Departamentin fəaliyyətinin təşkili

5.1. Departament bilavasitə Sədrə tabedir və onun qarşısında hesabat verir. Sədr tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla, heç kəs Departamentin fəaliyyətinə müdaxilə edə bilməz. Departamentin strukturuna KOB-ların bilik və bacarıqlara çıxışına dəstək şöbəsi, KOB-ların bazarlara çıxışına dəstək şöbəsi, G2B, B2B xidmətlərinin təşkili şöbəsi, KOB-ların maliyyə mənbələrinə çıxışına dəstək şöbəsi, KOB mühitinin təkmilləşdirilməsi şöbəsi və KOB-ların təşviqi şöbəsi daxildir.

5.2. Departamentin KOB-ların bilik və bacarıqlara çıxışına dəstək şöbəsinin vəzifələri bu Əsasnamə ilə müəyyən edilmiş 3.0.1-3.0.8-ci yarımbəndləri, KOB-ların bazarlara çıxışına dəstək şöbəsinin vəzifələri 3.0.9-3.0.15-ci yarımbəndləri, G2B, B2B xidmətlərinin təşkili şöbəsinin vəzifələri 3.0.16-3.0.20-ci yarımbəndləri, KOB-ların maliyyə mənbələrinə çıxışına dəstək şöbəsinin vəzifələri 3.0.21-3.0.27-ci yarımbəndləri, KOB mühitinin təkmilləşdirilməsi şöbəsinin vəzifələri 3.0.28-3.0.34-cü yarımbəndləri, KOB-ların təşviqi şöbəsinin vəzifələri 3.0.35-3.0.44-cü yarımbəndləri əhatə edir. Bu Əsasnamənin 3.0.45-3.0.50-ci yarımbəndləri ilə nəzərdə tutulmuş vəzifələr Departamentin bütün struktur vahidlərinə aid edilir.

5.3. Departamentin fəaliyyətinə Sədr tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (departament müdiri) rəhbərlik edir. Departament müdiri Departamentə

həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Departament müdirinin Sədr tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavinləri vardır. Departament müdirinin müavinləri Departament müdiri tərəfindən onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyırlar. Departament müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada Departament müdirinin müavinlərindən biri və ya Sədr tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

5.5. Departamentin strukturuna daxil olan şöbələrə Departament müdirinin tabeçiliyində olan müdirlər rəhbərlik edir. Sədr və Departament müdiri istisna olmaqla onların fəaliyyətlərinə hər hansı şəxs(lər) tərəfindən müdaxilə olunmasına yol verilmir.

5.6. Departamentin digər əməkdaşları Sədr tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

5.7. Departament müdiri:

5.7.1. Departamentin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.7.2. tabeliyində olan işçilər arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.7.3. Departamentə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.7.4. Departament üzrə normativ hüquqi aktların və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.7.5. Departamentin işçiləri barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Sədrə təqdimatlar verir;

5.7.6. Departamentin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Agentliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.7.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.7.8. Departamentdə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.7.9. Departamenti təmsil edir.

5.8. Departamentin əməkdaşları vəzifə təlimatlarına uyğun olaraq Departamentin bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrinin icrasının həyata keçirilməsini təmin edirlər.

5.9. Departamentin hər bir əməkdaşı vəzifə təlimatlarında nəzərdə tutulmuş vəzifələrin vaxtında yerinə yetirilməsinə, eləcə də hazırladığı, araşdırdığı və imzaladığı sənədin Azərbaycan Respublikasının qanunvericilik aktlarına, Agentliyin idarəetmə orqanlarının qərarlarına uyğunluğuna görə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələr çərçivəsində şəxsən məsuliyyət daşıyır.

## 6. Yekun müddəalar

Bu Əsasnaməyə əlavə və dəyişikliklər Sədrin müvafiq əmri ilə təsdiq edilir.